AZƏRTAC

**Azərbaycan Dövlət İnformasiya Agentliyi**

11 fevral 2021-ci il

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə Sizi AZƏRTAC-ın kollektivi adından səmimi qəlbdən təbrik edirəm.

Auditorlar Palatası ölkəmizdə milli audit sisteminin bərqərar olması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə, bütövlükdə, ölkə iqtisadiyyatının inkişafında auditin rolunun yüksəldilməsində yaxından iştirak edib. Palata iqtisadiyyatımızın davamlı inkişafı nəticəsində maliyyə hesabatlılığında şəffaflığın təmin olunması sahəsində maliyyə nəzarətini, eləcə də müstəqil auditin qarşısında qoyulan öhdəlikləri uğurla yerinə yetirib.

Şəffaflığın, hesabatlılığın və məsuliyyətin artırılması, dövlət əmlakının düzgün idarə olunması, antikorrupsiya mədəniyyətinin formalaşdırılması, korrupsiyaya qarşı mübarizə sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi, iqtisadi və sosial sahədə inkişafa mane olan amillərin aradan qaldırılması və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi üzrə Auditorlar Palatasının fəaliyyəti ölkə rəhbərliyi tərəfindən daim layiqincə qiymətləndirilib.

İnanırıq ki, Auditorlar Palatası səmərəli fəaliyyəti ilə ölkəmizdə müstəqil auditin inkişaf və tərəqqisinə, şəffaflığın təmin edilməsinə, davamlı inkişaf və yüksək sosial səviyyəsinə hədəflənən inkişaf konsepsiyasının həyata keçirilməsinə bundan sonra da öz töhfəsini verəcək.

Bu əlamətdar yubiley münasibətilə Sizi və kollektivinizi bir daha ürəkdən təbrik edir, işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**İdarə Heyətinin sədri** **Aslan Aslanov**

Bakı - AZ1000, Bülbül pr., 30 / Tel.: (+994 12) 493-59-29; 498-60-07, Faks(+994 12) 493-62-65
E-mail: azertac@azdata.net URL: http://www.azertag.gov.az